**UDC:** 327.
**LBC:** 63.3(2)6-4
**MJ №** 227
10.33864/2617-751X.2024.v7.i3.145-158

# The Importance of Implementing E-Government Procurement and the Innovations It Brings to E-Governance

**Muraz Suleymanov***
**Elshad Mirbashir oghlu****

**Abstract.** The article highlights the significance of conducting public procurements electronically and how the application and development of information and communication technologies (ICT) contribute to the efficient organization of public administration and economic development. Public procurement refers to the process of acquiring products or services for any government agency in the required quantity, quality, and at the most economical cost. The growing consumer market, reduced costs, and stimulation of the country's economy further underscore the relevance of procurement, while also encouraging the development of the private sector. In a digitalized world, implementing the procurement process electronically ensures the principles of efficiency, transparency, and fairness are upheld. The advancement of ICT leads to the complete digitization of the procurement process, safeguarding privacy for both purchasers and suppliers, which in turn fosters healthy competition in the procurement process. In every democratic government, steps are taken and reforms are implemented to ensure transparency in this area. International experiences are also examined, analyzing government approaches to electronic public procurement and identifying potential challenges. Additionally, the article emphasizes the steps taken in the Republic of Azerbaijan towards budget savings, fostering healthy competition, and ensuring transparency through the introduction of electronic procurement, along with the reforms implemented. The importance of the new law adopted to prevent potential issues and tender fraud is also highlighted. Finally, the article offers appropriate suggestions and recommendations for further improvements in this field.

**Keywords:** procurement, e-government, e-tender, supplier, purchaser, portal, contractor.

---

* PhD student in political sciences, Baku State University; Baku, Azerbaijan (corresponding author)
E-mail: murazsuleymanov01@gmail.com
https://orcid.org/0009-0002-2025-4289
** Doctor of political sciences, professor,
Academy of Public Administration under the President of the Republic of Azerbaijan, deputy of the Milli Majlis of the Republic of Azerbaijan; Baku, Azerbaijan
E-mail: elshad.mirbashiroglu@gmail.com

**To cite this article:** Suleymanov, M., & Mirbashir oghlu, E. [2024]. The Importance of Implementing E-Government Procurement and the Innovations It Brings to E-Governance. *“Metafizika” journal, 7(3),* pp.145-158.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i3.145-158

**Article history:**
*Received: 10.05.2024*
*Accepted: 01.07.2024*

**УДК:** 327.
**ББК:** 63.3(2)6-4
**MJ №** 227
10.33864/2617-751X.2024.v7.i3.145-158

# Важность внедрения электронных государственных закупок и инновации, которые они привносят в электронное правительство

**Мураз Сулейманов***
**Эльшад Мирбашир оглу****

**Абстракт.** В статье говорится о значении проведения государственных закупок в электронной форме, о вкладе электронных закупок, осуществляемых с применением и развитием информационно-коммуникационных технологий, в эффективную организацию государственного управления и развитие экономики. Государственные закупки означают процесс предоставления продукции или услуг любого государственного учреждения в необходимом количестве, качестве и наиболее экономичным способом. Растущий потребительский рынок, низкие затраты и стимулирование экономики страны еще больше повышают актуальность концепции закупок, а также создают инициативу для развития частного сектора. В цифровизированном мире реализация процесса закупок в электронной форме помогает обеспечить защиту принципов эффективности, прозрачности и справедливости. Развитие информационно-коммуникационного оборудования приводит к полной электронизации процесса закупок, а электронизация закупок обеспечивает защиту конфиденциальности как между покупателями, так и поставщиками, что непосредственно способствует обеспечению здоровой конкуренции в процессе закупок. В каждом демократическом правительстве предпринимаются определенные шаги и проводятся реформы, чтобы обеспечить прозрачность в этой сфере. При этом рассматривается международный опыт в этой сфере, анализируются подходы правительств к электронным государственным закупкам, отмечаются трудности, которые могут возникнуть в этой сфере. Также подчеркнуты шаги, предпринятые в направлении экономии государственного бюджета, развития здоровой конкуренции и обеспечения прозрачности при внедрении электронных закупок в Азербайджанской Республике, реализованные реформы. В этой сфере была отмечена важность нового закона, принятого в целях предотвращения возможных неприятных ситуаций и мошенничества при проведении тендеров, и в итоге были выдвинуты соответствующие предложения и рекомендации.

**Ключевые слова:** закупки, электронное правительство, электронный тендер, поставщик, закупщик, портал, подрядчик

---

* Аспирант Бакинского Государственного Университета; Баку, Азербайджан (ответственный автор)
E-mail: murazsuleymanov01@gmail.com
https://orcid.org/0009-0002-2025-4289
** Доктор политических наук, профессор,
Академия государственного управления при Президенте Азербайджанской Республики, депутат Национального собрания Азербайджанской Республики; Баку, Азербайджан
E-mail: elshad.mirbashiroglu@gmail.com

**Цитировать статью:** Сулейманов, М. & Мирбашир оглу, Э. [2024]. Важность внедрения электронных государственных закупок и инновации, которые они привносят в электронное правительство. *Журнал «Metafizika», 7(3),* с.145-158.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i3.145-158

***История статьи:***
*Статья поступила в редакцию: 10.05.2024*
*Отправлена на доработку: 03.06.2024*
*Принята для печати: 01.07.2024*

**UOT:** 327.
**KBT:** 63.3(2)6-4
**MJ №** 227
10.33864/2617-751X.2024.v7.i3.145-158

# Elektron dövlət satınalmalarının həyata keçirilməsinin əhəmiyyəti və elektron hökumətə gətirdiyi yeniliklər

**Muraz Süleymanov***
**Elşad Mirbəşiroğlu****

**Abstrakt.** Məqalədə dövlət satınalmalarının elektron qaydada həyata keçirilirməsinin əhəmiyyəti qeyd olunur, informasiya və kommunikasiya texnologiyalarının tətbiqi və inkişafı ilə həyata keçirilən elektron satınalmaların dövlət idarəçiliyinin səmərəli təşkilinə və iqtisadi inkişafa verdiyi töhfələr göstərilir. Dövlət satınalması dedikdə, hər hansı bir dövlət qurumunun məhsul və ya xidmətlərinin ehtiyac duyulduğu miqdarda, keyfiyyətdə və ən qənaətli şəkildə təmin olunması prosesi başa düşülür. Artan istehlak bazarı, aşağı xərclər və ölkə iqtisadiyyatının stimullaşdırılması satınalma anlayışının aktuallığını daha da artırır, həmçinin, özəl sektorun inkişafına təşəbbüs yaradır. Rəqəmsallaşan dünyada satınalma prosesinin elektron formada həyata keçirilməsi operativlik, səffaflıq və ədalətlilik prinsiplərinin qorunmasının təmin edilməsinə kömək edir. İnformasiya və kommunikasiya avadanlıqlarının inkişafı satınalma prosesinin tam elektronlaşmasına gətirib çıxarır və satınalmanın elektronlaşması həm satınalan, həm də təchizatçılar arasında məxfiliyin qorunmasını təmin edir ki, bu da satınalma prosesində sağlam rəqabətin təmin edilməsinə birbaşa töhfə vermiş olur. Hər bir demokratik hökumətdə bu sahədə şəffaflığın təmin edilməsi istiqamətində müəyyən addımlar atılır və islahatlar aparılır. Eyni zamanda bu sahədə beynalxalq təcrübə araşdırılır, hökumətlərin elektron dövlət satınalmalarına yanaşmaları təhlil edilir və bu sahədə yarana biləcək çətinliklər qeyd olunur. Həmçinin, Azərbaycan Respublikasında elektron satınalmaların tətbiqi ilə dövlət büdcəsinə qənaət edilməsi, sağlam rəqabətin inkişafı və şəffaflığın təmini istiqamətində atılan adımlar, həyata keçirilən islahatlar vurğulanır. Bu sahədə mümkün xoşagəlməz halların və tender saxtakarlığının qarşısının alınması məqsədilə qəbul olunmuş yeni qanunun əhəmiyyəti göstərilirmiş, yekunda isə müvafiq təklif və tövsiyələr irəli sürülmüşdür.

**Açar sözlər:** satınalma, elektron hökumət, e-tender, təchizatçı, satınalan, portal, podratçı

* Bakı Dövlət Universitetinin “Siyasi institutlar və sistemlər ixtisası” üzrə doktorantı; Bakı, Azərbaycan (məsul müəllif)
E-mail: murazsuleymanov01@gmail.com
https://orcid.org/0009-0002-2025-4289
** Siyasi elmlər doktoru, professor,
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Azərbaycan Respublikası Milli Məclisinin deputatı; Bakı, Azərbaycan
E-mail: elshad.mirbashiroglu@gmail.com

**Məqaləyə istinad:** Süleymanov, M., Mirbəşiroğlu, E. [2024] Elektron dövlət satınalmalarının həyata keçirilməsinin əhəmiyyəti və elektron hökumətə gətirdiyi yeniliklər. *“Metafizika” jurnalı,* 7(3), səh.145-158.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i3.145-158

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 10.05.2024*
*Təkrar işlənməyə göndərilmişdir: 03.06.2024*
*Çapa qəbul edilmişdir: 01.07.2024*

## 1.Giriş

Müasir idarəetmə erasında dövlət idarəçiliyinin həyata keçirilməsi yeni mexanizmlərə əsaslanır. Rəqəmsallaşan dünyada hökumətlər smart texnologiyalardan istifadənin genişlənməsinə xüsusi diqqət yetirir. Bu istiqamətlərdə həyata keçirilən əsas anlayışlardan biri də elektron dövlət satınalmaları ilə bağlıdır. Ümumi qaydada satınalma dedikdə bir müəssisənin mal və xidmətlərinin lazımi miqdarda, lazımi keyfiyyətdə, doğru zamanda və ən qənaətli formada təmin edilməsi prosesi başa düşülür.

Yeni satınalma siyasətləri dövlət satınalmalarının elektron qaydada və pul müqabilində həyata keçirilərək iqtisadi inkişaf üçün alətlərin təmin edilməsinə, eyni zamanda dövlət müqavilələrinin şəffaflığının qorunmasına yönəlmişdir. Satınalmaları tənzimləmək üçün yeni yanaşmaya əsasən dövlət sektorunda elektron satınalmaların tətbiqi ilə proseslərin ardıcıllığına, şəffaflığına və xərcin qənaətliliyinə nəzarət mümkün olmuşdur, bu isə satınalma prosesində mühüm göstərici hesab edilir.

## 2.Elektron dövlət satınalmalarının əsas mahiyyəti və həyata keçirilməsi prosesi

Satınalma anlayışı ilə bağlı əsaslı fikirlər 19-cu əsrin əvvəllərindən formalaşmağa başlamışdır. Burada sistemli yanaşma tədricən inkişaf etmiş və növbəti illərdən etibarən satınalma prosesi aktuallıq kəsb etmişdir. Satınalmanın mahiyyəti özündə bir neçə əsas anlayış və kateqoriyaları ehtiva edir. Bu anlayışlara satınalma, alış, tender, təchizat zənciri, satınalma predmeti, təchizatçı, sifarişçi və digərlərini aid etmək mümkündür.

Hökumətlərin gündəlik xərcləri, eləcə də iri dövlət infrastruktur layihələrinin həyata keçirilməsi məqsədilə satınalmaların yaradılmasında hökumətlərin qarşısında duran əsas vəzifələrdən biri şəffaflığın təminatlarını və prosesdə səmərəlilik alətlərini tarazlaşdıracaq dövlət satınalmaları üçün hüquqi rejimin hazırlanmasıdır. Burada bütün maraqlı tərəflər, yəni podratçılar, təchizatçılar və geniş ictimaiyyət dövlət satınalmalarında şəffaflığın və ədalətli rəqabətin əsas prinsiplərindən xəbərdar olmalı və bu prinsiplərə riayət etməlidirlər. Məlumdur ki, ən yaxşı nəticələrin əldə edilməsində şəffaflıq və rəqabət mühüm əhəmiyyətə malikdir, eyni zamanda bu üsul dövlət büdcəsinə qənaət edilməsində xüsusi rol oynayır [Süleymanov, 2023, səh. 1394].

Dövlət satınalmaları kağız üzərində və elektron formada həyata keçirilə bilər. İKT-nin inkişafı ilə əlaqəli olaraq zərflərin açılışınadək məxfiliyin saxlanılması və şəffaqlıq prinsipinin tam yerinə yetirilməsi məqsədilə son zamanlarda bütün dövlət satınalmalarının elektron qaydada həyata keçirilməsi istiqamətində mühüm işlər görülür.

Ümumi qaydada dövlət satınalma prosesləri üç mərhələdən ibarət olaraq təşkil edilir:

I. Tender öncəsi
II. Tender
III. Tenderdən sonra və müqavilənin yerinə yetirilməsi.

İlkin mərhələdə ehtiyac meyarı müəyyən edilir və bunun üçün alınacaq işlərin, malların və/və ya xidmətlərin siyahısı dəqiqləşdirilir. Bu mərhələdə tələb olunan məhsulların dəqiq spesifikasiyası, ehtimal qiymətin müəyyən edilərək büdcənin ayrılması və tenderin keçirilməsi üçün satınalma metodunun seçilməsi müəyyən edilir.

İkinci mərhələdə tender elanı həyata keçirilir və bu mərhələdə təchizatçılar iştirak edərək öz təkliflərini göndərirlər. Təchizatçıların qiymət təkliflərinin keçərli olması üçün onlar tələb olunan meyarlara cavab verməlidir. Yekunda ən uyğun və sərfəli hesab olunan təklif satınalan tərəfindən qalib elan olunur.

Sonuncu mərhələ tenderin yekunlaşması və müqavilənin imzalanması ilə başa çatır. Daha sonra müqavilənin icrası həyata keçirilir. Bu zaman artıq təchizatçı mal və ya xidmətləri təqdim edir. Satınalan təşkilat onların etibarlılığını yoxlayır və uyğun olaraq ödənişləri hissə-hissə vəya bütöv formada həyata keçirir. Bununla da, prosesin və müvafiq mal və ya xidmətin yekunu baş verir.

Bazarda sürətlə yaranan yeni satınalma təcrübələrindən və qanuni standartlara uyğun gələn dəyişikliklərdən asılı olmayaraq prosesin üç mərhələsi dəyişməz olaraq qalır. Son bir neçə ildə beynəlxalq tərəfdaşlıq əsasında dövlət satınalmalarının tətbiqinə dair bir sıra qanunlar, norma və standartlar qəbul edilmişdir. Buraya 2011-ci ildə qəbul edilmiş dövlət satınalmaları haqqında Model Qanununu, Avropa İttifaqı tərəfindən 2012-ci ildə qəbul edilmiş və 2014-cü ildə qüvvəyə minən Dövlət Satınalmaları Sazişinin Ümumdünya Ticarətinin Deqanlaşdırılması reversiyasını aid edə etmək olar (6). Elektron satınalma zamanı dövlət sektorunun tələbatına uyğun olaraq işlərin, malların və xidmətlərin müqavilələrini həyata keçirərkən hökumətlər tərəfindən informasiya texnologiyalarından, xüsusən də internetdən istifadə olunur. Elektron satınalma prosedurları məkan və zamanın fiziki maneələrini parçalayır, real vaxt rejimində avtomatik qeydə alınaraq dövlət müqavilələrinin həm şəffaflığını, həm də səmərəliliyini artırır.

Müasir informasiya texnologiyaları sayəsində şəffaflıq və etibarlılıqdakı təkmilləşdirmələr əlavə xərclərə səbəb olmur, əksinə, e-tender prosedurları elektron satınalma vasitələrinin investisiya xərclərini ödəməkdən daha çox gəlir gətirir və təchizatçılar üçün daha yüksək rəqabət sevgisi yaratmış olur. Əlavə olaraq, satınalmaların həyata keçirilməsi kiçik və orta sahibkarlıq subyektləri üçün satınalmada iştiraklarına daha açıq və bərabər çıxışı təmin etməklə iqtisadiyyatın inkişafını dəstəkləyir. Elektron portal vasitəsilə tender prosedurların aparılması dövlət satınalma əməliyyatlarının prosesləri, qərarları və nəticələrini izləmək üçün şərait yaradır. Bu hal müəyyən

müqayisələrin aparılmasını mümkün edir, səmərəliliyi artırır və yeni təchizatçıların qoşulması üçün stimul formalaşdırır.

Keçən əsrin ortalarına kimi informasiya və kommunikasiya texnologiyaları bütün dünyada yeni kapital qoyuluşunun kiçik bir komponenti hesab olunurdu, lakin indi bu amil bəzi ölkələrdə belə investisiyaların yarıdan çoxunu təşkil edir. Bu texnologiyalar yalnız kapitalın bir parçası deyil, həm də bu sahədə dərin bir örtüyü özündə əks etdirir. Bunlara müəyyən istehsal vasitələri, kommersiya və ictimai fəaliyyətdə cəmiyyətin geniş iştirakının əhatə dairəsi və s. aiddir. İnformasiya cəmiyyətini sənaye inqilabı zamanı mövcud olan vəziyyətlə müqayisə etsək, aydın olur ki, sənaye inqilabı özünün fiziki imkanlarını artırdığı kimi, onlayn texnologiyalar da getdikcə daha çox intellektual imkanları artırmaq üçün vasitələr təqdim edir. Bu səbəbdən informasiya cəmiyyətinin inkişafı potensialının gücləndirilməsi müasir dövrdə sürətli formada davam edir.

Dövlət sektorunda e-satınalmanın aşağıdakı beş vacib elemetini göstərə bilərik:

- e-rabitə (təchizatçılardan gələn məktubların əlavə rəsmiləşdirmə aparılmadan qəbul edilməsi);
- e-bildirişlər (satınalma imkanları ilə bağlı məlumatların onlayn və ödənişsiz olması);
- e-təqdimatlar (tələblərin bütün podratçılar üçün bərabər olması və yalnız onlayn təqdim edilməsi);
- e-tenderlər (tender sənədləri və satınalmaya dair qərarlara aid məlumatların ictimaiyyət üçün açıq olması);
- e-qeydlər (müvafiq qərarların real vaxt rejimində elan olunaraq qeyd edilməsi və asanlıqla əldə olunmasının təmini).

İKT-nın inkişafı ilə əlaqədar dövlət satınalmaları sektorunda mütəmadi olaraq islahatlar aparılır. Bir sıra dövlətlərdə, xüsusilə, Braziliya, Koreya, Yaponiya və Portuqaliya kimi ölkələrdə daha geniş satınalma islahatı sübut etmişdir ki, müvafiq islahatlar, sürətli elektron satınalma vasitələrinin onlayn prosedurları çevik idarəetmə və iqtisadi inkişaf kimi əsas siyasət məqsədlərini təmin edə bilər. Bu kimi amillər isə dövlət büdcəsinin daha səmərəli formada istifadə edilməsinə xüsusi dəstək verir.

Tender prosedurlarının elektron olması şəffaflığı və səmərəliliyi artıran vacib xüsusiyyətdir. Bu üsul real vaxt rejiminə uyğun olaraq satınalmaların yekunlaşaraq mövcud tələbatın keyfiyyətli təmini ilə dövlət satınalmaları funksiyasının hesabatlılığını və dəyərliliyini artırmış olur və dövlət sektorunda idarəetməni yeni formada təkmilləşdirir.

**3.Beynəlxalq təcrübənin araşdırılması**

Dövlət satınalmaları sahəsində, xüsusilə, elektron satınalma proseslərində beynəlxalq təcrübənin öyrənilməsi və əməkdaşlığın həyata keçirilməsi

mühüm əhəmiyyətə malikdir. Bu istiqamətdə bir sıra ölkələrdə ümumi prosedur qaydaları araşdırılmış və uyğun istiqamətlərin tətbiqinin Azərbaycan Respublikasında da həyata keçirilməsi tövsiyə edilmişdir.

Azərbaycan və Türkiyə arasında strateji müttəfiqlik bütün sahələrdə olduğu kimi elektron dövlət satınalmalarının həyata keçirilməsində də əməkdaşlıq edilməsinə şərait yaratmışdır [Cəfərova, 2023. səh.114]. Satınalmaların həyata keçirilməsi məqsədilə elektron portalın fəaliyyəti istiqamətində müəyyən əməkdaşlıq edilmişdir. Türkiyə də tender prosedurlarının aparılması qaydaları portal üzərindən həyata keçirilir və portalda qeydiyyatın alınması, sənədlərin hazırlanması, satınalma predmetinin elan edilməsi, təklifin dəyərləndirilməsi kimi bir neçə mərhələdən ibarətdir.

Avstraliya hökumətinin hazırlıq, intensivlik və təsirin bir-biri ilə əlaqəli üç konsepsiyası vacib rola malikdir. Hazırlıq mərhələsi yerli, milli və transmilli səviyyələrdə aparılır ki, bu konsepsiya xüsusi satınalma fəaliyyətlərinin niyə həyata keçirildiyini özündə əks etdirir. İntensivlik konsepsiyasında dövlət satınalmalarında elektron proseslərin tətbiqi zamanı təşkilata ötürülən fayda nəzərdə tutula bilər ki, burada sadələşmə və hesabatlılıq mühüm əhəmiyyət daşıyır. Bundan əlavə olaraq ümumi nəticənin öyrənilməsi və hesabatlılığın artırılması istiqamətində təsir metodundan istifadə oluna bilər. Burada müəyyən sorğuların aparılması məqbul hesab edilir.

Əməliyyatlar və digər təchizat zəncirinin idarə edilməsi vasitəsilə iş axını proseslərinin inteqrasiyası həyata keçirilir və emal xərclərinin azaldılır. Satınalma sahəsində islahatlar aparan və elektron dövlət satınalmasını qəbul etmək istəyən ölkələr bir neçə Çoxtərəfli İnkişaf Bankı tərəfindən yaradılmış birgə e-GP internet saytında [www.mdb-egp.org] əlavə məlumat tapa bilərlər [7]. Müvafiq internet saytından lazımlı məlumatların əldə edilməsi mümkündür və hazırda Dünya Bankı aşağıdakılar vasitəsilə dövlət satınalmaları islahatlarının bir hissəsi kimi elektron dövlət satınalmalarını dəstəkləyir:

- Şəffaflığın təkmilləşdirilməsi
- Hesabatlılıq
- Monitorinq
- Audit yoxlamaları
- Təchizat zənciri
- Sağlam rəqabətlilik və s.

Aİ Komissiyası tərəfindən mükafatlandırılmış ölkələrdən biri kimi Portuqaliya elektron satınalma sahəsində özünəməxsus sistem yaratmışdır. Portuqaliyada bir neçə mərkəzi satınalma orqanı fəaliyyət göstərir və hökumət e-Satınalma platformalarının provayderləri ilə çərçivə sazişi

vasitəsilə xidmət müqavilələri əsasında çox şaxəli platformanın icrasını təmin edir [6].

Portuqaliyada elektron dövlət satınalma islahat modellərinə aşağıdakı ümumi elementləri aid edə bilərik:

- Təchizatçılar üçün qeyri-mərkəzləşdirilmiş ümumi satınalma platformasının tətbiqi və müəyyən növ mallar üçün mərkəzləşdirilmiş çərçivə sazişlərinin bağlanması;
- Tələb olunan, ehtiyac duyulan mallar üçün əvvəlcədən müəyyən edilmiş texniki spesifikasiyalar kitabxanalarının dəstəkləməsi;
- Tender prosedurunda mərkəzləşdirilmiş çərçivə sazişləri istisna olmaqla bütün digər satınalma platformalarında təchizatçıların və podratçıların sərbəst girişini təmin etmək.

### 3.1.Elektron satınalma prosesində yaranan çətinliklər

Kağız formada dövlət satınalmalarından elektron satınalmaya keçid özü ilə bir sıra təkmilləşdirmələr, operativlik, şəffaflıq və səmərəlilik gətirmişdir. Bundan əlavə, onlayn interaktiv iş üçün yenidən dizayn edilmiş elektron satınalma prosedurları sadələşdirilmiş və daha sürətli qərar qəbul etməyi mümkün edir. Eyni zamanda, məxfilik təminatları yaxşı qurulmuş və aydın şəkildə müəyyən edilmişdir. Elektron satınalmanın tətbiqi ilə aşağı əməliyyat xərcləri formalaşmış və bütün maraqlı tərəflər faydalanması mümkün olmuşdur [Akdoğan. 2014. səh.688].

Elektron satınalmanın həyata keçirilməsinin üstünlükləri yalnız mövcud satınalma praktikasında islahatların mütəmadi olaraq aparılması zamanı özünü göstərir. Düşünülmüş, effektiv və səmərəli islahat özündə siyasi dəstək, təcrübə və müxtəlif satınalma bacarıqlarını ifadə edir. Həmçinin, qeyd olunan prosedurlar zamanı ardıcıllıq və nəzarət tətbiq edilmədikdə, gözlənilən faydaların əldə olunması sual doğura bilər.

Tender prosedurlarını həyata keçirən hökumətlər bir neçə vacib məqamı və çətinlikləri nəzərə almalıdır. Bunlara aşağıdakıları aid etmək mümkündür:

- Xərc amili (hansı metodun tətbiq edilməsindən asılı olaraq satınalma sisteminin işlənib hazırlanmasında və tətbiq olunması zamanı səhv təcrübə və ya digər nəzərə alınmamış amil xərcləri çoxalda bilər);
- Podratçı və ya təchizatçıların etirazı (etiraz hallarına daha çox şəffaflıq və sağlam rəqabətlə bağlı məsələlər olur, eyni zamanda, kompüter savadının aşağı səviyyəsi, məlumatların təhlükəsizliyi ilə bağlı narahatlıqlar da yarana bilir);
- Satınalma islahatı (islahatların işlənib hazırlanması zamanı məqsədlər, biznes nümunəsi, resurslar və gözlənilən nəticələr nəzərə alınmalıdır. Elektron dövlət satınalması ilə bağlı bütün aspektlər kompleks şəkildə nəzərə alınmalı və islahatların tətbiqi müəyyən vaxt aralığı

gözlənilməklə mütəmadi olaraq həyata keçirilməlidir) (Akdoğan, M. 2014.səh. 690).

İslahatlar həyata keçirilərkən hökumət əlavə riskləri idarə etmək üçün imkanlara və resurslara malik olmalıdır. Elektron satınalmaların tətbiqi çox zaman hökumətin fəaliyyətini təmin etmək üçün tələb olunan məhsulların və ya xidmətlərin satın alınmasını dəstəkləyən dövlət xidmətləri əməliyyatlarının mühüm bir hissəsinə çevrilmiş olur. Tenderdə iştirak etmək üçün tədarükçülər və podratçılardan tələb olunan ümumi istifadə və iştirak haqqı, hətta kiçik olsa da, bəzən özəl sektor bu xərclərdən uzaq durur. Hazırda bir sıra dövlətlərdə, əməliyyat haqları hesabına maliyyələşdirilən elektron satınalma portalı tətbiq olunur və hökumətlər mövcud sistemi dəstəkləmək üçün müxtəlif kommersiya platforması operatorları ilə əməkdaşlıq edərək müəyyən razılaşmalar həyata keçirirlər.

**4.Azərbaycan Respublikasında tender prosedurlarının aparılması qaydaları**

Azərbaycan Respublikasında dövlət satınalmaları ilkin dövrdə daha çox kağız üzərində həyata keçirilməsinə baxmayaraq, son dövrlərdə tender prosedurlarının aparılmasının tamamilə elektronlaşdırılması istiqamətində əhəmiyyətli addımlar atılmışdır. Bu istiqamətdə bir sıra qanunlar qəbul edilmiş və iş mexanizmi şəffaflığın tam təmin edilməsinə yönəlmişdir. Burada əsas məqsəd haqlı rəqabət çərçivəsində satınalmanın həyata keçirilməsi, dövlət büdcəsinə qənaət edilməklə tələblərin yüksək keyfiyyətli olaraq təmin edilməsidir [2].

22 ildən artıq müddətdə qüvvədə olan mövcud 27 dekabr 2001-ci il "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanunu qüvvədən düşmüş və 14 iyul 2023-cü ildə “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının yeni qanunu qəbul edilmişdir. Burada bir sıra istiqamətlərdə dəyişiklər edilmişdir. Bu qanun 10 fəsil və 59 maddədən ibarətdir [1]. Qanunun fəsillərini və ümumi mahiyyətini aşağıdakı kimi göstərmək mümkündür:

- Ümumi müddəalar adlanan ilk fəsil 13 maddədən ibarətdir. Burada əsas anlayışlar, qanunun tətbiq dairəsi, satınalmaların əsas prinsipləri, maraqlar, məxfilik, valyuta, sənədlərin təqdim edilmə formaları və sənədləşmənin aparılması dili ilə bağlı məlumatlar öz əksini tapmışdır;
- İkinci fəsil özündə dövlət satınalmalarına nəzarətin həyata keçirilməsini əks etdirir. Nəzarət xüsusiyyətləri qeyd edilməklə yanaşı, etibarsız təchizatçı anlayışı əlavə edilmişdir;
- Növbəti fəsil satınalmaların təşkili ilə bağlıdır. Burada satınalamların təşkili, planlaşdırma, komissiyanın məsuliyyəti, ehtimal olunan qiymət, təchizatçıların uyğunluq göstəriciləri və uyğunluğun

əvvəlcədən müəyyən edilməsi qaydaları kimi məsələlər qeyd olunmuşdur;

- Təkliflərin qəbulu və açılması adlanan fəsil xüsusi əhəmiyyət kəsb edir ki, burada əsas məsələlər istifadə haqqı və iştirak haqqının müəyyən edilməsi, təkliflərin təqdim edilməsi, təminatı, dəyişdirilməsi, qüvvədə olma müddəti, geri götürülməsi və açılması qaydalarıdır;
- Beşinci fəsil təkliflərin qiymətləndirilməsi və satınalma komissiyasının qərarları ilə bağlıdır ki, bu hissədə uyğunluq sənədlərinin və təkliflərin qiymətləndirilməsi, komisiyyanın qərarı və satınalma müqaviləsi ilə əlaqəli prosedurlar göstərilmişdir;
- Növbəti hissədə hesabatın hazırlanması və satınalma müqaviləsinə dair digər tələblər öz əksini tapır;
- Yeddinci fəsil satınalma metodları adlanır və bu hissədə satınalmaların həyata keçirilməsi metodları qeyd olunur. Bu metodlara açıq tender, ikimərhələli tender, qapalı tender, kotirovka sorğusu və bir mənbədən satınalma daxildir.
- Çərçivə sazişi kimi göstərilən səkkizinci fəsil qanunda yeni anlayış hesab edilə bilər ki, bu hissədə çərçivə sazişinin mahiyyəti və ona dair tələblər qeyd edilmişdir;
- Doqquzuncu fəsil şikayətin verilməsi adlanır. Bu hissədə satınalan təşkilata şikayət, nəzarət orqanına şikayət, inzibati qaydada və məhkəməyə şikayət öz əksini tapmışdır;
- Sonuncu fəsil yekun müddəalardır, burada qanunun pozulmasına görə məsuliyyət və bu qanunun qüvvəyə minməsi qeyd olunur [1].

**4.1.Elektron dövlət satınalmalarının tam şəffaflığı istiqamətində həyata keçirilən islahatlar və yeniliklər**

14 iyul 2023-cü ildə “Dövlət satınalmaları haqqında” qəbul edilmiş və 2024-cü ilin yanvar ayından etibarən qüvvəyə minən qanunun əsas məqsədi məhz dövlət satınalmalarında tam şəffaflığın və sağlam rəqabətin təmin edilməsidir. Bu qanunun təkmilləşdirilməsi istiqamətində edilmiş əsas dəyişikliklər aşağıdakılardır:

- Bəzi satınalma metodlarının ləğvi və yeni satınalma metodlarının tətbiqi;
- Qanunun tətbiq dairəsinin yenilənməsi;
- Yeni prosedur və anlayışların əlavə edilməsi;
- Qara siyahının tətbiqi və etibarsız təchizatçıların satınalma prosedurlarından kənarlaşdırılması;
- Gözləmə müddətinin tətbiq olunması;
- İştirak haqqı və istifadə haqqı ilə bağlı yeni qaydalar;
- Ehtimal məbləğlə bağlı məxfiliyin aradan qaldırılması;
- Uyğunluq və tələb olunan sənədlərlə bağlı yeni meyarlar;

- Qanunun pozulmasına görə məsuliyyətlərin sərtləşdirilməsi və s. [1]

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti dövlət vəsaitləri hesabına malların, işlərin və xidmətlərin satın alınması sahəsində dövlət siyasətini həyata keçirir. Elektron dövlət satınalmaları elektron qaydada portal üzərindən həyata keçirilir. Dövlət satınalmalarının vahid internet portalının fəaliyyətinin hüquqi, təşkilati və texnoloji əsasları Azərbaycan Respublikasının dövlət başçısının 2019-cu il 16 aprel tarixli 647 nömrəli Fərmanı ilə təsdiq edilən Dövlət satınalmalarının vahid internet portalı haqqında Əsasnamədə öz əksini tapmışdır [13].

Portalın fəaliyyət prinsiplərini aşağıdakı kimi qruplaşdırmaq mümkündür:

- Şəffaflıq;
- Məxfilik;
- Bərabər imkanların yaradılması;
- Səmərəlilik və operativlik;
- Fəaliyyətin fasiləsiz həyata keçirilməsi;
- Modulluq və miqyaslılıq.

**5.Nəticə**

Elektron dövlət satınalmalarının tətbiqi elektron hökumətə yeniliklər gətirməklə yanaşı, dövlət idarəçiliyinin səmərəli qaydada həyata keçirilməsi istiqamətində mühüm əhəmiyyət kəsb etmişdir. Dövlət satınalmalarının elektronlaşdırılması dövlət büdcəsinə qənaət edilməsinə, sağlam rəqabətin inkişafına, prosesin həyata keçirilməsinə nəzarətin gücləndirilməsi və asanlaşdırılmasına əsaslı qaydada töhfə verməklə yanaşı, səmərəliliyi təmin etmişdir.

Elektron tenderlərin həyata keçirilməsində beynəlxalq təcrübənin araşdırılması vacib rol oynayır. Bu amil həm elektron portalda tender prosedurlarının aparılmasına fayda verir, həm təhlükəsizlik və məxfiliklə bağlı məsələlərin təmin edilməsində həll yollarının tapılmasına dəstək olur, həm də təchizatçı və satınalan arasında əlaqənin qurulması üsullarını təkmilləşdirir. Bu istiqamətdə Azərbaycan Respublikasında mütəmadi qaydada islahatlar aparılır və buna nümunə kimi dövlət satınalmaları ilə bağlı yeni qanunun qəbul edilməsini göstərə bilərik.

Azərbaycan Respublikasında elektron dövlət satınalmalarının tətbiqinin əhəmiyyəti və dövlət idarəçiliyində gözlənilən perspektivlərin özünü doğrultması istiamətində aşağıdakı təklif və tövsiyələr göstərilmişdir:

- Elektron satınalma prosesinin təşviqi siyasəti və sahibkarların məlumatlandırılması;
- Mikro və kiçik sahibkarlıq subyektlərinə əlavə şəraitin yaradılması;
- Real ehtimal qiymətin çıxarılmasında əlavə mexanizmin tətbiqi;
- Sənədləşmə işlərinin konkretləşdirilməsi;

- Beynəlxalq təcrübənin araşdırılması və uyğun hesab edilən yeniliklərin tətbiqi.

## ƏDƏBİYYAT


1. National Assembly of Azerbaijan. (2023). *Law of the Republic of Azerbaijan on public procurement* (No. 988-VIQ). Baku, July 14, 2023.
2. National Assembly of Azerbaijan. (2022). *Law of the Republic of Azerbaijan on Public-Private Partnership*. Baku, December 9, 2022.
3. Akdogan, M. (2014). Evaluation of European Union public procurement directives and their reflection on Turkey's implementation in the light of progress reports. *Journal of Istanbul University Law Faculty, 72*(2), 683-701.
4. Jafarova, A. (2021). Azerbaijan-Turkey strategic partnership and alliance in the media. *Metafizika, 4*(3), 107-118.
5. Demirci, D. (2018). A new step declaration method in electronic tendering. *Public Procurement World, 1*(3), 26-33.
6. European Commission. (2018). Public procurement. Retrieved from https://ec.europa.eu/growth/single-market/public-procurementen
7. Asian Development Bank. (2013). *E-government procurement handbook*. Mandaluyong City, Philippines.
8. CHOMU International Journal of Social Sciences. (2019). *4*(2), 333-356.
9. Gasimov, F. H., & Hasanova, P. A. (2010). *Innovation activity in the sphere of natural monopoly in Azerbaijan*. Baku: Elm, 300 p.
10. Volune, I. (2020). *Public-private partnership for skills development: A governance perspective*. European Training Foundation.
11. Suleymanov, M. (2023). *V International Scientific Conference of researchers in the field of economics and management, conference full-text report book*, 1389-1398.
12. Suleymanov, M. (2023). *Materials of the republican scientific-practical conference "Honorary head of security agencies of Azerbaijan" dedicated to the 100th anniversary of the birth of national leader Heydar Aliyev*, 575-577.
13. *State Procurement Agency of the Republic of Azerbaijan.* (n.d.). Retrieved from https://etender.gov.az/
14. *E-Government Development Center of the Republic of Azerbaijan.* (n.d.). Retrieved from https://www.e-gov.az/az/news/read/721
15. *Competition Authority of the Republic of Azerbaijan.* (n.d.). Retrieved from https://competition.gov.az/az/post/592/dovlet-satinalmalarinin-vahid-internet-portali-etendergovaz-yenilendi
16. *National Assembly of Azerbaijan.* (n.d.). Retrieved from https://e-ganun.az/framework/54966

**17.** *Public Procurement Magazine.* (n.d.). Retrieved from https://satinalmadergisi.com/e-satinalma/
**18.** *Electronic Public Procurement Platform.* (n.d.). Retrieved from https://ekap.kik.gov.tr/EKAP/Default.aspx?ReturnUrl=%2Fekap%2F
**19.** *TechTarget.* (n.d.). E-procurement. Retrieved from https://www.techtarget.com/searchcio/definition/e-procurement
**20.** *European Dynamics.* (n.d.). EPPS. Retrieved from https://www.eurodyn.com/portfolio-item/epps/
**21.** *Competition Authority of the Republic of Azerbaijan.* (n.d.). Retrieved from https://competition.gov.az/az

## REFERENCES

**1.** National Assembly of Azerbaijan. (2023). *Law of the Republic of Azerbaijan on public procurement* (No. 988-VIQ). Baku, July 14, 2023. (in Azerbaijani)
**2.** National Assembly of Azerbaijan. (2022). *Law of the Republic of Azerbaijan on Public-Private Partnership*. Baku, December 9, 2022. (in Azerbaijani)
**3.** Akdogan, M. (2014). Evaluation of European Union public procurement directives and their reflection on Turkey's implementation in the light of progress reports. *Journal of Istanbul University Law Faculty, 72*(2), 683-701. (in Turkish)
**4.** Jafarova, A. (2021). Azerbaijan-Turkey strategic partnership and alliance in the media. *Metafizika, 4*(3), 107-118. (in Azerbaijani)
**5.** Demirci, D. (2018). A new step declaration method in electronic tendering. *Public Procurement World, 1*(3), 26-33. (in English)
**6.** European Commission. (2018). Public procurement. Retrieved from https://ec.europa.eu/growth/single-market/public-procurementen (in English)
**7.** Asian Development Bank. (2013). *E-government procurement handbook*. Mandaluyong City, Philippines. (in English)
**8.** CHOMU International Journal of Social Sciences. (2019). *4*(2), 333-356. (in English)
**9.** Gasimov, F. H., & Hasanova, P. A. (2010). *Innovation activity in the sphere of natural monopoly in Azerbaijan*. Baku: Elm, 300 p. (in Azerbaijani)
**10.** Volune, I. (2020). *Public-private partnership for skills development: A governance perspective*. European Training Foundation. (in English)
**11.** Suleymanov, M. (2023). *V International Scientific Conference of researchers in the field of economics and management, conference full-text report book*, 1389-1398. (in Azerbaijani)

**12.** Suleymanov, M. (2023). *Materials of the republican scientific-practical conference "Honorary head of security agencies of Azerbaijan" dedicated to the 100th anniversary of the birth of national leader Heydar Aliyev*, 575-577. (in Azerbaijani)
**13.** *State Procurement Agency of the Republic of Azerbaijan.* (n.d.). Retrieved from https://etender.gov.az/ (in Azerbaijani)
**14.** *E-Government Development Center of the Republic of Azerbaijan.* (n.d.). Retrieved from https://www.e-gov.az/az/news/read/721 (in Azerbaijani)
**15.** *Competition Authority of the Republic of Azerbaijan.* (n.d.). Retrieved from https://competition.gov.az/az/post/592/dovlet-satinalmalarinin-vahid-internet-portali-etendergovaz-yenilendi (in Azerbaijani)
**16.** *National Assembly of Azerbaijan.* (n.d.). Retrieved from https://e-ganun.az/framework/54966 (in Azerbaijani)
**17.** *Public Procurement Magazine.* (n.d.). Retrieved from https://satinalmadergisi.com/e-satinalma/ (in Azerbaijani)
**18.** *Electronic Public Procurement Platform.* (n.d.). Retrieved from https://ekap.kik.gov.tr/EKAP/Default.aspx?ReturnUrl=%2Fekap%2F (in Turkish)
**19.** *TechTarget*. (n.d.). E-procurement. Retrieved from https://www.techtarget.com/searchcio/definition/e-procurement (in English)
**20.** *European Dynamics.* (n.d.). EPPS. Retrieved from https://www.eurodyn.com/portfolio-item/epps/ (in English)
**21.** *Competition Authority of the Republic of Azerbaijan.* (n.d.). Retrieved from https://competition.gov.az/az (in Azerbaijani)